# İKİ ADIN ARASINDA

**Müasirimiz Şəfəq Nasir publisist-ədəbiyyatşünas, jurnalist kimi geniş ədəbi-ictimai fəaliyyəti ilə daha çox göz önündə olsa da, söz aləminə ilk hekayələr kitabı ilə gəlib. Şəfəq imzası ilə dərc olunan "Gecə yağışı" kitabı həcmcə gözə kiçik görünsə də, bu kitaba toplanmış səkkiz hekayə daha böyük mətləblərdən xəbər verirdi. Birincisi, bu kitab Şəfəq Nasirin geniş nəsr yaradıcılığı imkanlarına malik olduğunu təsdiq edən ədəbi fakt idi. İkincisi, qoyulan problemlər, əsərlərin dili, təsvir mükəmməlliyi göstərir ki, Şəfəq Nasir ilk kitabının nəşrinəcən artıq hazırlıq yolunu çoxdan keçmişdi. Hekayələrin bitkinliyi və bütövlüyü göstərir ki, müəllifin özünün daxili mühitində hadisələri boyaboy görməsindən sonra qələmə alınıb.**

**Şəfəq Nasir ilk hekayələr kitabı ilə ədəbi mühitə manifest olaraq bildirib ki, o, həyatı görünən və görünməyən tərəfləri ilə müşahidə imkanlarına malikdir. O, öz müşahidələrini istedadla yazıya gətirə bilir. Bu gün tanıdığımız geniş ictimai-ədəbi fəaliyyət göstərən Şəfəq Nasir ədəbiyyata yazıçı kimi gəlmişdi.**

* * *

"Divarın o üzündə" hekayəsi "Gecə yağışı" kitabında birinci yer alır. Bu hekayədə "köhnə Bakılı" adlandıra biləcəyimiz iki şəxsin həyat yolundan bir kəsik təqdim olunur. Və biz bu kəsik lent parçasının - fraqmentin vaxt darlığında iki insanın timsalında tənhalığa tabe olmaq istəməyən, həyatı həyat kimi yaşamaq uğrunda mübarizə aparan iki sadə insanı görürük.

Ağabala həyət sahibidir. On il əvvəl arvadını itirəndən sonra öz həyətində, öz evində tənha yaşayır. Güllübəyim isə kirayənişindir. O da illərdir ki, elə bu həyətdə, Ağabalanın gözü qabağındadır. Məlumatdan aydın olur ki, onun övladları var. Nəvələri var və arabir onların yanına da dəyir. Hekayədə işarə vurulmasa da oxucu yaxşı anlayır ki, Güllübəyim bu həyətdə niyə tənha yaşayır. Görünür, o, gəlin himayəsinə keçmək istəməyib. Elə bu səbəbdən də "öz əli, öz başı" deyə bu həyətdə tənha yaşamaq yolunu seçib. Amma Ağabalanın ailə-uşağı haqqında isə məlumat yoxdur. Yetmişinci illərin sakit, gözütox dolanışığı bu iki şəxsin tənhalıqda da olsa, həyatını təmin edir. Bəli, onlar köhnə bakılılardır. Bir-birinə ərk eləyə bilirlər. Doğrudur, Ağabala böyüklüyünü hərdən ərkyana da olsa, bildirir, nəzərə çatdırır və elə onun belə ərkyana böyüklüyünü heç Güllübəyim də yuxarı almır. Yaşın qaynar zamanını çoxdan ötmüş bir kişi və bir qadın üçün də yaşamağın təkcə maddi təminatdan asılı olmadığını göstərən hekayədə müəllif ustalıqla, tələsmədən onların bir-birinə doğru gələn yolunu maneələrdən təmizləyir.

On il... az vaxt deyil. Bu iki insan bir-birinə tərəf heç özlərinin də xəbəri olmadan könül aləmlərinin alt qatlarından boy göstərən hisslərlə gəliblər. Sanki, sel gəlib, lil torpağın üstünü basıb örtüb, canlı olan nə varsa altda qalıb. Bir də görürsən lil çatlarının arasından cücərtilər görünür. Yaşları ötmüş, kişi və qadının həyat istəkləri və yaşamaq hissləri beləcə oyanırdı və təzədən oyanırdı. Müəllif on illik dözümün gücünü özünün "astagəl" yazısı ilə hadisəyə süni sürət vermədən göstərə bilir. Yazıdakı hadisə sürətinin hərəkəti həyatdakı zamanın ləngərli axarı ilə harmoniya yaradır:

"Ağabala ertədən yatağına girmişdi. Ancaq gecədən xeyli keçsə də, gözünə yuxu getmirdi. Yerinin içində ha qurcalandı, xeyiri olmadı. Yuxusu ərşə çəkilmişdi. Divarın o üzündə telefon zəngləri, qab-qacaq cingiltisi kəsilmişdi. Təkcə Güllübəyim arvadın ayaq səsləri eşidilirdi. "Zalımın qızı öyün içində gəzəndə, elə bil paraxod ləngər vurur". Güllübəyimin ayaq səsləri də qəfil kəsildi, "hə deyəsən yatdı". O da gözlərini bərk-bərk yumdu ki, yatsın. Amma qulağı səsdə idi. Ha dinşədi qonşu otaqdan hənirti də duymadı. Dözməyib gözlərini açdı, hətta qalxıb oturdu, qulağını divara söykədi: "Balam, Güllübəgimdən çıxmayan iş, nə tez o dünyalıq oldu". Güllübəyimin yeridikcə silkələnən ağır, ətli bədəni, titrəyən qolları gözləri qarşısına gəldi, durub otaqda gəzindi". Bu artıq əsir olunmuş Ağabaladır. Onun əvvəlki diliacılığı ilə indi damağına qırmızı istiot çəkilmiş halının arasında çox fərq var. Əvvəlki diliacılığı böyüklük mahiyyəti daşıyırdı. Yəni, ətrafdan göz-qulaq olmaq, əhatəsini mühafizə etmək gücündə olduğunu, başqa sözlə, köhnə bakılı kişisinin təbiətini göstərirdi. Amma indi vəziyyət dəyişib. Onun könlünün quşu Güllübəyimin yuvasına uçur. Ancaq bu yuvaya haradan, necə daxil olmaq onun üçün çox çətindir. Köhnə bakılı ləyaqəti... yolu bağlayan çox nəsnələr var.



Yenə müəllifin hadisəni sürətdən yayındıran, hərəkətdən salan təsviri gəlir və bu təsvir oxucuda köhnə bakılı obrazını görə bilmə imkanı yaradır: "Otuz beş ildir ki, dilləşə-dilləşə bir həyətdə yaşayırdılar. Rəhmətlik arvadı Qəndab sağlığında aranı birtəhər sakitləşdirirdi, "a kişi, dul arvaddı, nə işin var", - deyirdi. İndi on il idi Qəndab ölmüşdü və bu on ildə Ağabala qırmızı bibər kimi lap acılanmışdı. Həyət-bacada hərlənən, iş görən və ona gözünün ucu ilə də baxmayan Güllübəyimi görəndə, elə bil kişinin damağına doğrudan da istiot sürtürdülər. "Ağəz, az fırlan, az taqqıltı sal qapıda", - deyirdi". Beləcə, gözlərimizin önündə on illik yolun necə bir-birinə səmt almasını sözün gücünə qavraya bilirik. Əvvəla, sevgi duyğularının yaşın hansı çağında olursa-olsun gəlməsi təbiidir. Ancaq köhnə bakılılar - Ağabala və Güllübəyim bu hisslərin qeyri-əxlaqi mahiyyət daşımasını da istəmir... onları öz hisslərini gizlətməyə vadar edən də mənsub olduğu mühitin qanununu müqəddəs bir kult kimi öz içlərində daşımalarıdır.

Köhnə bakılıların - məhəllə - həyət sahiblərinin yetmişinci illərin tələbəlik çağlarında hələ yaşayan nəsillərini mən də görmüşdüm. Onlar öz mühitlərinin övladı olduqlarını hələ də unutmurlar. Yeri gələndə sərt, yeri gələndə yumşaq bir ədа ilə köhnə bakılı imicini yad təsirlərdən hifz edirdilər. Şəfəq Nasir elə bu imici yüksək koloritlə oxucunun gözü qarşısında canlandırır: "Güllübəyim bir dəfə ona baxdı, baxdı, dinib eləmədən harasa getdi. Və iki gün görünmədi. Birinci günün axşamı Güllübəyim qayıtmayanda, Ağabala ürəyində güldü: "Pah, acıq eləməyinə bax da. Acıq eləyirsən dədəmin ayaq altına kimi elə. Gedərsən, yerinə başqa kirayəçi saxlayaram. Nə çoxdu ev axtaran". İkinci gün axşam da Güllübəyim görünməyəndə Ağabala çöldən yığışa bilmədi, gözü qaldı darvazada. Gecə keçənəcən Ağabala içəri girib çölə çıxdı. Amma Güllübəyim gəlmədi ki, gəlmədi. Səhər yuxudan ayılanda gördü ki, Güllübəyim həyətdədi. Əl-üzünü yumamış özünü çölə atdı.

-Güllübəgim, dimişəm, yenə diyirəm, bir gün sənin başıvı baltanın altına qoyub beçə başı kimi üzəcəyəm.

-Nöşün, Ağabala, neyləmişəm yenə?

-Canuva dərd eləmisən! Ağəz, sənə deməmişəm ki, gözümün qabağında zivəyə paltar sərmə?!

-Bəs, hara sərim, Ağabala, yuduqlarımı qurutmalıyam, ya yox?

-Mənə nə var qurutmalısan! Nə bilim, hara sərəsən, sər ağacların kəlləsinə!

Güllübəyim gözucu həyətin ayaq tərəfindəki iki qotur alma ağacına baxdı. Arvadı od götürdü.

-Ağaca da paltar sərilər, harda görünüb bu? Ağabala, səni tapşırmışam o göydəki kişiyə. Qoy səniynən Allah özü haqq-hesab çəksin! Qurban demişəm sən öləndə heyvan kəsdirib qonum-qonşuya paylıyacam, əllərimlə, ayaqlarıma xına qoyacam!

Birdən də dediklərinə peşman olmuş kimi günahkarcasına başını aşağı dikdi. Beləcə quruyub qaldı. Ağabala ağarmış pırpız qaşlarının altında qayır-qayır qaynayan gözlərilə bir baxıma təpə-daban onu süzdü.

-Güllübəgim!

Arvad diksindi, amma hay vermədi.

-Güllübəgim, nöşün xarabanda oturmursan, ağəz, mən sənin qarolvulçunam? Gəlib-gedəninə cavab verənəm? O soruşur: Güllübəgim hanı? Bu soruşur: Güllübəgim hanı? Otur xarabanda, cavabını da özün ver!

-Neyləyim, evimdə oturanda da dava-dalaş salırsan. Getdim ki, nə məni gözün görsün, nə də könlün bulansın. - Güllübəyim doluxsundu: - Heç bilmirəm, başıma haranın daşını salım.

-Yaxşı, yaxşı vay-şivən qoparma. - Bu dəfə Ağabala gördü ki, özü də doluxsunur, tez evə qayıtdı...

Mükəmməl dialoqun, mənzərə reallığının ən gözəl nümunəsi, hətta bu parça da mətndə artıqlıq yaradar deyə, nəyisə kəsməyə belə əlim gəlmədi. Hər cəhətdən oxucu zövqünü təmin edən lövhənin bu qədər canlı yaradılışı ancaq istedadla bağlıdır. Gərək nə qədər dərin müşahidə və Allahın verdiyi uca istedad sahibi olasan ki, yazıda "həyatın bir parçası" mükəmməlliyini təmin edə biləsən.

Bu hikkəli Ağabala nə vaxt sınır, necə olur ki, yaşının bu çağında olsa belə həyatın daha bir sirrinin mahiyyətini anlayır. O vaxt ki, müəllif yazıya epizodik də olsa, üçüncü şəxsi daxil edir. Bu, yazıda adı bir dəfə çəkilən radio-televizor ustası Mərdandır. Ağabala Mərdanla Güllübəyimin mehriban münasibətindən sarsılır. Bəlkə də, həyatı boyu ilk dəfə belə sarsıntı keçirir, yorğan-döşəyə düşür. Və bu dəfə Güllübəyimin rahatsızlığı başlayır. O, Ağbalanın həyət-bacada görünməməsindən bərk nigaran olur və kişinin qapısını açır. Və onların illərdən bəri ilk dəfə səmimi ünsiyyəti üzə çıxır. Onların hər ikisinə aydın olur ki, daha bir-birindən ayrı yaşaya bilməzlər. Güllübəyim xüsusi doğmalıq qayğısı ilə kişinin etirazına baxmadan ona yemək gətirir. Güllübəyimin evə gedib yemək gətirənəcən ötən qısa vaxt ərzində Ağabala qalxıb geyinir. Və bu geyinməyə adi hal kimi baxmaq olmaz. Bu, Ağabalanın dirçəlişidir və həyata yenidən gəlişidir. O, ilk dəfə özündə cəsarət tapıb Güllübəyimə məramını açıqlayır: "Güllü, əgəm ki, istəsən, aramızdakı divardan bir qapı açardıq... - Ağabala dolmadan yeyə-yeyə bu sözləri dedi və başını qaldıranda gördü ki, Güllübəyim qıp-qırmızı olub, gözlərini də dikib ara divara..." Güllübəyimin ara divara baxmağı da elə onun həyata qayıdışıdır.

İki şəxsin sağlam mənəvi mühiti beləcə tənhalığa qalib gəlir. Müəllifin əsər boyu yazının alt qatınca oxucuya ötürmək istədiyi fikir enerjisi bir xəbərdarlıqdır. Yəni, sevgisiz yaşamağın faciəsindən çıxış yolu özündən başlayır. Özündən qeyri bir kimsə səni düşdüyün girdabdan xilas edə bilməz. Yazıçı tələşlı anlarda insanın həqiqət hissini itirə biləcəyinə, vəziyyətə real anlayışla yanaşa bilməyəcəyinə də diqqəti yönəldir.

Güllübəyimin gəlininin əmisi Mərdana onun mehriban münasibəti Ağabalada necə çaşqınlıq yaradır. Və bu çaşqınlıq necə sarsıntıya çevrilir. Şübhə onun içini yeyir. Hətta görüntüləri belə özünün fantaziyası ilə yozur. Güllübəyimin gülüşünə onun verdiyi mənanı müəllif çox sərrast ifadə edib: "Gör necə kişnəyir". Axır ki, hadisənin on illik yol boyu gələn ləngərli axarı astanaya çıxır. Mənəvi mühitin tələbləri daxilində təmkinin, dözümün təntənəsi öz qələbəsini elan edir.

Şəfəq Nasir iki ad arasında bütöv bir həyat səhnəsi yarada bilib. Ağabalanın timsalında çoxlu Ağabalalar gördüyümüz kimi, Güllübəyimin də obrazında neçə belə Güllübəyimlər olduğunu duyuruq. Demək, yazıçının istedadından asılıdır. Geniş və əhatəli təsvirlərə yol vermədən, sərrast və dəqiq dialoqlarla həm insan təbiətinin sirrlərini açmaq, həm də dəqiq və aydın xarakterlər, obrazlar yaratmaq olar.

"Divarın o üzündə" əsəri qəfəs içindəki ürəklər haqqında həyat hekayəsidir. Bu həyat yenə müxtəlif məkanlarda, müxtəlif zümrələr arasında davam edir. İnsan nəsli yaşadıqca varlığını qoruyacaq hisslər özünün yazı taleyini də yaşayacaq.

*30.06.2020*